

# Noyabr ayı üçün kiber və texnologiya xəbərləri

## Azərbaycan

### Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti CERT Mərkəzinin yeni veb-saytı istifadəyə verilib

CERT-in tərkibində fəaliyyət göstərən kiberəməliyyatlar mərkəzi (SOC) vasitəsilə dövlət qurumlarında informasiya təhlükəsizliyi 24/7 monitorinq edilir, dövlət informasiya sistem və ehtiyatlarında informasiya təhlükəsizliyi auditləri aparılır və "GOV.az" domen zonası üzrə inzibatçı funksiyası icra edilir.

Mənbə: scis.gov.az 4 Noyabr 2023

### Kiberdələduzlar dövlət qurumlarının adlarından istifadə edirlər

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi son aylarda kiberdələduzluq hallarında ciddi artış hiss olunması barədə xəbərdarlıq yayıb. Belə kiberdələduzluq hallarından biri də dövlət qurumları və ya ödəmə platformalarının adından istifadə etməklə oxşar domen nümunələri ilə yaradılmış, kommunal xidmətlərin və ya cərimələrin xüsusi endirimlər və bonuslarla ödənilməsi adı altında yaradılan

və sosial şəbəkələr vasitəsi ilə reklam olunaraq vətəndaşların marağını cəlb edən saxta səhifələrdir.

Mənbə: xeberler.az    13 Noyabr 2023

## Onlayn dələduzluq hadisəsi vətəndaşlara xeyli maddi zərər vurub

Azərbaycanda “Pazfarm” adlı şəbəkənin yüzlərlə insanın xeyli miqdarda vəsaitini ələ keçirməsi barədə məlumatlar yayılmışdır. İnsanlara virtual formada taxıl, kartof, qarğıdalı əkərək zəncir marketinqinə əsaslanan pul qazanma təklif edən şəbəkənin toplanan pulları ələ keçirərək fəaliyyətini dayandırdığı bildirilir. Məsələ ilə bağlı Daxili İşlər Nazirliyi (DİN) tərəfindən araşdırma aparılır.

Mənbə: az.trend.az    13 Noyabr 2023

## Azərbaycanda kiberdələduzlar saxta lotereya kampaniyası keçirib

Azərbaycanda dələduzlar digər rəsmi qurumun adından istifadə edərək, saxta lotereya kampaniyası keçirməklə vətəndaşlardan xüsusi veb-saytda müvafiq bölməyə daxil olduqdan sonra ad, soyad, fin kod və bank kartı kimi fərdi məlumatlarını daxil etməklərini tələb edirlər.

Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara belə saxta veb-saytlara etimad etməməyi, şübhəli keçidlər vasitəsilə bank kartı və digər fərdi məlumatlarını qarşı tərəfə təqdim etməməyi tövsiyə edir.

Mənbə: apa.az 17 Noyabr 2023

## İnformasiya təhlükəsizliyi sahəsində anlaşma memorandumu imzalanıb

Elektron Təhlükəsizlik Xidmətinin (ETX) nümayəndə heyəti Qazaxıstana işgüzar səfər edib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat verir ki, səfər çərçivəsində ETX ilə Qazaxıstanın Dövlət Texniki Xidməti informasiya təhlükəsizliyi sahəsində Anlaşma Memorandumu imzalayıb. Anlaşma Memorandumu tərəflər arasında informasiya təhlükəsizliyi sahəsində, xüsusilə insidentlərə cavab tədbirləri baxımından əməkdaşlıq və qarşılıqlı fəaliyyətin çərçivələrini müəyyən edir.

Mənbə: xeberler.az    20 Noyabr 2023

## 72 informasiya resursumuz kiberhücuma məruz qalıb

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) bildirir ki, informasiya resurslarımıza intensiv DDoS kiberhücumları baş verib və bunlardan 15-nin dövlət qurumu olmasına baxmayaraq, XRİTDX tərəfindən görülmüş qabaqlayıcı tədbirlər nəticəsində “AzStateNet” şəbəkəsinə qoşulmuş informasiya resurslarının fasiləsiz fəaliyyəti təmin edilib.

Mənbə: az.trend.az    24 Noyabr 2023

# Qazaxıstan

## Qazaxıstanda internet dələduzluğu hallarının sayı 5 dəfə artıb

Qazaxıstan Respublikası Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Mərkəzini bildirib ki, əgər 2018-ci ildə internet dələduzluq hallarının sayı 4 mindən çox idisə, 2022-ci ilin sonunadək onların sayı 5 dəfə artaraq 20 mindən çox olub. Daxili İşlər Nazirliyinin məlumatına görə, 2018-ci ildə Qazaxıstan vətəndaşlarına təxminən 600 milyon təngə, 2022-ci ildə isə təxminən 16 milyard təngə dəyərində ziyan dəyib.

Mənbə: profit.kz 17 Noyabr 2023

## İnternet fırıldaqçıları Çimkənd sakinlərinə hücumlar edib

Ümumilikdə ilin əvvəlindən şəhərdə 786 internet dələduzluğu faktı qeydə alınıb. Yerli sakinlərə dəymiş ümumi ziyan 720 milyon təngə təşkil edib. İnternet fırıldaqçılığına qarşı mübarizə məqsədilə vətəndaşlarla mütəmadi olaraq izahat işləri aparılır.

Mənbə: profit.kz 21 Noyabr 2023

# Özbəkistan

## OpenAI ChatGPT-dən istifadə etmək üçün Özbəkistana girişi açır

İndi Özbəkistanda insanlar rəsmi olaraq ChatGPT-dən istifadə edə bilərlər. Əvvəllər xidmətdə qeydiyyatdan keçmək üçün Özbəkistanda istifadəçilər xarici telefon nömrəsinə (ChatGPT-nin işlədiyi yerlərdə) malik olmalı və VPN-dən istifadə etməli idilər. Artıq Özbəkistanda mobil rabitə operatorları ilə qeydiyyatdan keçmək mümkündür.

Mənbə: kun.uz 9 Noyabr 2023

## Özbəkistan Mərkəzi Asiyada internet paylanmasında ön sıralardadır

Özbəkistanın internet infrastrukturu 2023-cü ildə simli internet sürətinə görə dünyada 131-ci yeri tutaraq, əvvəlki illə müqayisədə 24 pillə yüksəliş göstərib. Özbəkistan internet xidmətlərinin geniş yayılmasına görə Mərkəzi Asiyadakı həmkarlarını geridə qoyub. Noyabrda verilən məlumata görə, ölkə ümumilikdə 31 milyon şəbəkə istifadəçisinə malikdir və 4,4 milyon ev təsərrüfatları, müəssisələr və sosial obyektlər internet servislərindən yararlanır. Mobil internet istifadəçilərinin sayı isə 29,5 milyona bərabərdir.

Mənbə: daryo.uz 27 Noyabr 2023

# Gürcüstan

## Tiflis Texnologiya Parkı Gürcüstanda ilk olaraq Starlink internetini əldə etdi

Tiflis Yüksək Texnologiyalar və İnnovasiyaların İnkişafı Mərkəzi ölkəyə rəsmi təqdim olunduqdan sonra Gürcüstanda Starlink xidmətindən yüksəksürətli internet əldə edən ilk təşkilat oldu. Gürcüstan İnnovasiyalar və Texnologiyalar Agentliyi bildirib ki, Park ofislərinin yaxınlığında quraşdırılmış peyk antenası ilə geniş zolaqlı əlaqəyə çıxış əldə edəcək.

Mənbə: agenda.ge 2 Noyabr 2023

# Qırğızıstan

## Bişkekdə məlumatların oğurlanması hadisəsi qeydə alınıb

Qırğızıstanın Milli Təhlükəsizlik üzrə Dövlət Komitəsi MDB vətəndaşlarından ibarət gizli transmilli kiberqrupun fəal iştirakçılarından biri olan qırğızıstanlını saxlayıb. Məlumata görə, qrup internet istifadəçilərinin şəxsi məlumatlarını oğurlamaq, saxta xəbərlər göndərmək, o cümlədən MDB-də yerləşdirilmiş bombalar haqqında yalan məlumatlar olan anonim mesajların göndərilməsi üçün sifarişlərin qəbulu kimi dələduzluq üsullarından istifadə etmişdir.

Mənbə: 24.kg 2 Noyabr 2023

MAKING AN IMPACT THAT MATTERS since 1845

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.